“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin
Səhmdarlarının Ümumi Yığıncağı
tərəfindən təsdiq edilmişdir
Protokol № 1; Qərar № 4
Tarix: «11» oktyabr 2019-cu il

# “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin

# Səhmdarlarının Ümumi Yığıncağı haqqında

# ƏSASNAMƏ

**Bakı şəhəri**

**2019-cu il**

## I. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarına, Azərbaycan Respublikası Mərkəzi Bankının və Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarına, “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – “Bank”) Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır və Bankın Səhmdarlarının Ümumi Yığıncağının (bundan sonra – “Səhmdarların Ümumi Yığıncağı”) iclaslarının çağırılması, keçirilməsi və qərarlarının qəbul edilməsi qaydasını müəyyən edir.

1.2. Səhmdarların Ümumi Yığıncağı Bankın ali idarəetmə orqanı olmaqla öz fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Bankın Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində həyata keçirir.

1.3. Bank bütün səhmdarlarına Səhmdarların Ümumi Yığıncağının iclaslarında iştirak etmək üçün bərabər imkan yaradır.

## II. Səhmdarların Ümumi Yığıncağının iclaslarının çağırılması və səhmdarların Ümumi Yığıncağın iclaslarında iştirak etməsi qaydası

2.1. Səhmdarların növbəti və növbədənkənar Ümumi Yığıncaqları keçirilə bilər.

2.2. Səhmdarların növbəti Ümumi Yığıncağı (illik Ümumi Yığıncağı) ildə 1 (bir) dəfədən az olmayaraq keçirilir. Növbəti Ümumi Yığıncaqlar Bankın hər il üçün maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından keçdikdən sonra ən geci 2 (iki) ay ərzində keçirilir.

2.3. Səhmdarların hər bir növbəti Ümumi Yığıncağının iclasının bildirişlər göndərilmək yolu ilə çağırılması və gündəliyinin qəbul edilməsi Bankın Müşahidə Şurası tərəfindən həyata keçirilir.

2.4. Səhmdarların hər bir növbəti Ümumi Yığıncağının iclasının keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin iclasın gündəliyi iclasın keçirilməsi gününə ən azı 45 (qırx beş) təqvim günü qalmış səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir.

2.5. Səhmdarların Ümumi Yığıncağının iclasının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilir:

2.5.1. Bankın adı və olduğu yer;
2.5.2. Səhmdarların Ümumi Yığıncağının iclasının keçirilmə tarixi, vaxtı və ünvanı;
2.5.3. Səhmdarların Ümumi Yığıncağının iclasının gündəliyi;
2.5.4. Səhmdarların Ümumi Yığıncağının iclasının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

2.6. Səhmdarların növbədənkənar Ümumi Yığıncaqları səsvermə hüququ olan səhmlərin azı 5 (beş) faizinin sahibləri olan səhmdarların, Bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər.

2.7. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının iclasının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər iclasın gündəliyinə mütləq salınmalıdır.

2.8. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının iclasının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən Bankın İdarə Heyəti aşağıdakıları yerinə yetirməlidir:

2.8.1. 3 (üç) iş günü müddətində Səhmdarların Ümumi Yığıncağının iclasının vaxtını və yerini təyin edib, bu barədə kütləvi informasiya vasitələrində elan verməlidir;

2.8.2. 5 (beş) iş günü müddətində Səhmdarların Ümumi Yığıncağının iclasının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

2.8.3. 30 (otuz) gündən tez, 45 (qırx) beş gündən gec olmayaraq Səhmdarların Ümumi Yığıncağının iclasının keçirilməsini təmin etməlidir.

2.9. Hər bir səhmdar Səhmdarların Ümumi Yığıncağının iclasında özünün səs hüququnu həm şəxsən, həm də səlahiyyətli nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın səlahiyyətli nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır. Etibarnamə iclas başlananadək verilir və Ümumi Yığıncağın protokoluna qoşulur.

2.10. Səhmdarları qanuni əsasda təmsil edən şəxslər üçün ayrıca etibarnamə tələb olunmur. Həmin şəxslər bu cür səlahiyyətlərini təsdiqləyən sənəd təqdim edirlər.

2.11. Bankın Nizamnaməsində nəzərdə tutulmuş halda, səhmdar Ümumi Yığıncağın iclasının gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd vasitəsi ilə səsvermədə qiyabi iştirak edə bilər.

2.12. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, Ümumi Yığıncağın iclasında səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

2.13. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarlar Bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər.

## III. Səhmdarların Ümumi Yığıncağının iclaslarının keçirilməsi və qərarlarının qəbul edilməsi qaydası

3.1. Səhmdarların Ümumi Yığıncaqları (o cümlədən yenidən və təkrarən çağırılan Ümumi Yığıncaqlar) bütün səsvermə hüququ olan səhmlərin azı 60 (altmış) faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

3.2. Səhmdarların Ümumi Yığıncağının iclaslarında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, Ümumi Yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır.

3.3. Səhmdarların Ümumi Yığıncağının gündəliyə daxil edilmiş məsələlər müzakirə edilir.

3.4. Gündəlikdə nəzərdə tutulmayan məsələlərin müzakirəsinə və müvafiq qərarların qəbul edilməsinə, həmin Ümumi Yığıncaqda səsvermə hüququna malik olan bütün səhmdarların iştirak etdiyi və yekdilliklə razılıq verdiyi hallar istisna olmaqla, yol verilmir.

3.5. Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar Ümumi Yığıncaqda təmsil edilən səhmdarların 75 (yetmiş beş) faiz səs çoxluğu ilə qəbul olunur.

3.6. Banka aidiyyəti olan şəxslə dəyəri Bankın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar Bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan Səhmdarların Ümumi Yığıncağının sadə səs çoxluğu ilə qəbul edilir.

3.7. Səhmdarların Ümumi Yığıncağında bütün digər qərarlar Ümumi Yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

3.8. Səhmdarların Ümumi Yığıncağının iclasında iştirak edən səhmdarların sadə səs çoxluğu ilə Ümumi Yığıncağın iclasına sədrlik edən şəxs təyin edilir.

3.9. Səhmdarların Ümumi Yığıncağının iclasına sədrlik edən şəxs Bankın rəhbərliyində təmsil olunmayan şəxslər sırasından Ümumi Yığıncağın katibini seçir və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda Hesablama Komissiyasının üzvlərini təyin edir.

3.10. Ümumi Yığıncağın katibi:
- 3.10.1. Səhmdarların Ümumi Yığıncağında yetərsayın olmasını müəyyənləşdirir;
- 3.10.2. Ümumi Yığıncağın iclas protokollarını aparır, iclas protokollarından çıxarışları imzalayır;
- 3.10.3. Səhmdarların Ümumi Yığıncağının qərarlarının layihələrini hazırlayır, baxılması və imzalanması üçün Ümumi Yığıncağın iclasına sədrlik edən şəxsə təqdim edir;
- 3.10.4. Ümumi Yığıncağın iclas protokollarının və qəbul olunmuş qərarların surətlərini səhmdarlara çatdırır;
- 3.10.5. Ümumi Yığıncağın iclas protokollarını və digər sənədlərini saxlayır.

3.11. Səhmdarların Ümumi Yığıncağının iclaslarında Ümumi Yığıncağın katibi tərəfindən xüsusi avadanlıq vasitəsilə audio və video yazılar aparıla bilər.

3.12. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda, Səhmdarların Ümumi Yığıncağının iclaslarında səsvermənin nəticələrinin müəyyən edilməsi üçün sayı 3 (üç) nəfərdən az olmayan Hesablama Komissiyası yaradılır.

3.13. Hesablama Komissiyasına Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri və həmin vəzifələrə (vəzifəyə) seçilməyə namizədlər daxil edilməməlidir.

3.14. Hesablama Komissiyası:
- 3.14.1. Ümumi Yığıncağın iclasında səsvermə prosedurunu və səhmdarların səs vermək hüququnu təmin edir;
- 3.14.2. Ümumi Yığıncağın iclasında səslərin hesablanmasını həyata keçirir və səsvermənin nəticələri barədə protokolu imzalayır.

3.15. Hesablama Komissiyasının protokolu Ümumi Yığıncağın protokoluna əlavə olunur.

3.16. Səhmdarların Ümumi Yığıncağının öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarları Ümumi Yığıncağın iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.
3.17. Səhmdarların Ümumi Yığıncağının protokolu iclas bitdikdən sonra 3 (üç) iş günündən gec olmayaraq 2 (iki) nüsxədə tərtib olunur, iclasa sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.
3.18. Səhmdarların Ümumi Yığıncağının protokolunda aşağıdakılar göstərilir:
  3.18.1. Ümumi Yığıncağın iclasının keçirilmə vaxtı və yeri;
  3.18.2. Ümumi Yığıncağın iclasının gündəliyi;
  3.18.3. Ümumi Yığıncağın iclasının iştirakçılarının səsli səhmlərinin sayı;
  3.18.4. Ümumi Yığıncağın iclasında iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
  3.18.5. çıxışların xülasəsi;
  3.18.6. səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;
  3.18.7. Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.
3.19. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.
3.20. Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarlar 15 (on beş) təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.
3.21. Səhmdarların Ümumi Yığıncağının qərarından səhmdar məhkəməyə şikayət edə bilər.

## IV. Yekun müddəalar

4.1. Səhmdarların Ümumi Yığıncağının qərarlarının icrası məcburidir.
4.2. Səhmdarların Ümumi Yığıncağının iclaslarında iştirak edən səhmdarlar iclasların aparılmasına suni şəkildə maneəçilik törətməməlidirlər, iclasın gedişatını pozan hərkətlərə yol verməməlidirlər.
4.3. Səhmdarlar Bankın öhdəlikləri üçün cavabdeh deyildirlər və Bankın fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.
4.4. Səhmdarlar onlara məlum olan bank və kommersiya sirrini təşkil edən məlumatların və ya məxfi hesab olunan digər məlumatların qeyri-qanuni açılmasına görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mülki, inzibati və cinayət məsuliyyətini daşıyırlar.
4.5. Səhmdarların hüquqlarının müdafiəsi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq təmin edilir.